# Azərbaycan Polisi Günü qeyd olundu




İyul ayının 2-də Qəbələ Rayon Polis Şöbəsinin əməkdaşları özlərinin peşə bayramları Azərbaycan Polisi Gününü qeyd etmək üçün şəhərin mərkəzindəki parka gəldilər.

Mərasimdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayon hüquq mühafizə orqanlarının rəhbərləri, polis veteranları iştirak etdilər.

Rayon polis şöbəsinin rəisi, polis polkovnik-leytenantı Ehtibar Abduyev polis əməkdaşları adından xalqımızın ümummilli lideri Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə tər qızıl gül qönçələri qoydu və dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad etdi.

Sonra qonaqlar, polis veteranları və polis əməkdaşları abidə önündən keçərək ulu öndərin xatirəsinə öz ehtiramlarını bildirdilər. Polis əməkdaşları Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirdilər.

Daha sonra polis əməkdaşları Heydər Əliyev mərkəzinə gəldilər. Burada, ümummilli lider Heydər Əliyevin büstü önünə də tər güllər qoyuldu. Polis işçiləri muzeyin ekspozisiya zalında Heydər Əliyevin keçdiyi həyat yolunu əks etdirən fotostendlərlə tanış oldular.



Muzeyin direktor əvəzi Kəmalə Qasımova XX əsrin böyük şəxsiyyəti Heydər Əliyevin keçdiyi həyat yolunu əks etdirən foto-stendlərlə ziyarətçiləri yaxından tanış etdi. Heydər Əliyevin 1978 və 2002-ci illərdə Qəbələ səfərləri polis əməkdaşlarında xüsusi maraq doğurdu. Sonda şəxsi heyət və polis veteranları muzeyin foyesinə toplaşdılar.



Şöbə rəisi, polis polkovnik-leytenantı Ehtibar Abduyev polis əməkdaşlarını və şöbədə uzun müddət xidmət etmiş, hazırda istefada olan polis veteranlarını 2 iyul--Azərbaycan Polisi Günü münasibətilə təbrik etmiş, onlara xidməti vəzifələrinin yerinə yetirilməsində, şəxsi həyatlarında uğurlar arzulamışdır.

Tədbirdə öz xidməti borcunu şərəflə yerinə yetirmiş polis veteranlarına hədiyyələr təqdim olundu.

Veteranlardan Nurəddin Tağızadə, Vahid Cabbarov və başqaları çıxış edərək onlara göstərilən dövlət qayğısına görə ölkə rəhbərinə minnətdarlıqlarını bildirərək polis işçilərini bayram münasibətilə təbrik etdilər.

Tədbiri yekunlaşdıran Ehtibar Abduyev sonda qeyd etdi ki, Qəbələ polisi bundan sonra da rayonda cinayətkarlığa qarşı mübarizədə, ümumiyyətlə asayişin keşiyində daha möhkəm dayanaraq öz şərəfli vəzifəsini müstəqil dövlətimizin qarşıya qoyduğu tələbləri əzmlə yerinə yetirəcəkdir.

**Nadir ATAKİŞİYEV,**
**Fotolar S. Umuyevindir.**

# 2015-ci ilin birinci yarımili ərzində 2972 sahibkara 97 milyon manat güzəştli kredit verilmişdir





İyulun 2-də İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu Qəbələ rayonunun Vəndam qəsəbəsində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirmişdir.

Forumda Qəbələ Rayon İcra Hakimiyyətinin İqtisadi İnkişafın Təhlili və Proqnozlaşdırılması şöbəsinin müdir müavini Rahib Əhmədov, Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev iştirak etmişlər.

Öncə Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə həyata keçirilən layihələr barədə videoçarx nümayiş olundu.

Forumda sahibkarlara güzəştli kreditlərin alınması mexanizmi barədə məlumatlar verilmiş, Qəbələdə həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr təqdim edilmiş, sahibkarlarla müvəkkil kredit təşkilatları arasında işgüzar münasibətlər qurulmuş, sahibkarların investisiya layihələri maliyyələşdirilmişdir.

Forumda çıxış edən Rahib Əhmədov iştirakçıları salamlamış, son illər rayonda sahibkarlıq fəaliyyətinin genişləndirildiyini, özəl bölmənin dinamik inkişaf etdiyini, yeni istehsal və xidmət müəssisələrinin yaradıldığını, əhalinin məşğulluq səviyyəsinin yüksəldiyini bildirmişdir. Çıxışına davam edən natiq bildirdi ki, fondun köməkliyi ilə digər bölgələrdə olduğu kimi rayonumuzda da bir sıra layihələr həyata keçirilmişdir. Sonda isə R. Əhmədov bütün iştirakçılara uğurlar arzuladı.

100-ə yaxın sahibkarın iştirak etdiyi ixtisaslaşdırılmış "yaşıl market"in, intensiv bağçılıq, tərəvəzçilik, taxılçılıq, balıqçılıq, arıçılıq təsərrüfatlarının, balın sənaye üsulu ilə emalı və qablaşdırılması, şirniyyat məhsullarının istehsalı və xalçaçılıq müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmiş, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100%-dək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilmiş, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirmişdir ki, 2015-ci ilin birinci yarımili ərzində 2972 sahibkara 97 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 6600-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə bu il maliyyələşdirilmiş layihələrin sayı 13 faiz artmışdır. Bu dövrdə güzəştli kreditlərin 86,2 faizi aqrar sektorun, 13,8 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına verilmişdir. Kreditlərin 73,5 faizi respublikanın regionlarının payına düşür.

**(Ardı 4-cü səhifədə).**